İPƏK YOLU, No.1, 2023, səh.14-22

# AĞILLI KƏND LAYİHƏSİ YAŞIL İQTİSADİYYATIN TƏMƏLİ KİMİ

**Orxan Hacızadə**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: hacizada.orxan@gmail.com

**Xülasə**. 2020-ci ildən başlayan, hələ də davam edən qlobal böhranlar səbəbindən milli iqtisadiyyatlar yaşıl iqtisadiyyat və davamlı inkişaf konseptinə diqqət ayırmağa başladılar. Yaşıl iqtisadiyyatın ekoloji inkişafa verdiyi töhvələr XXI əsrdə yaranmış “Ağıllı kənd” layihələrinin yaranmasına təkan vermişdir. Məqalədə Dünya və Azərbaycan miqyasında bu fenomen araşdırılmışdır.

**Açar sözlər**: yaşıl iqtisadiyyat, ağıllı kənd, davamlı inkişaf, ekoloji inkişaf.

**SMART VILLAGE PROJECT AS THE FOUNDATION OF GREEN ECONOMY**

**Orkhan Hajizade**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. Due to the ongoing global crises that started in 2020, national economies began to pay attention to the concept of green economy and sustainable development. The contributions of the green economy to ecological development have given impetus to the creation of "Smart Village" projects in the 21st century. In the paper this phenomenon was investigated at the world and Azerbaijani levelş
**Keywords**: green economy, smart village, sustainable development, eco-development.

**ПРОЕКТ УМНАЯ ДЕРЕВНЯ КАК ОСНОВА ЗЕЛЕНОЙ ЭКОНОМИКИ**

**Орхан Гаджизаде**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В связи с продолжающимися глобальными кризисами, начавшимися в 2020 году, национальные экономики стали обращать внимание на концепцию зеленой экономики и устойчивого развития. Вклад зеленой экономики в экологическое развитие дал толчок к созданию проектов «Умная деревня» в 21 веке. В статье это явление исследовано на уровне мира и Азербайджана.
**Ключевые слова:** зеленая экономика, умная деревня, устойчивое развитие, экоразвитие

## 1. Giriş

XXI əsrin əvvəllərindən başlayan ekoloji problemlər 2020-ci ildən başlayaraq daha da kəskinləşməyə, dövlət və özəl sektorlara təsirini artırmağa başladı. 2020-ci ildə dünyada başlayan COVİD-19 pandemiyası qlobal miqyasda iqtisadiyyatların durğunluq rejiminə keçməsinə səbəb oldu. Çatdırılma mexanizmlər və istehsal-istehlak münasibətlərinin fundamental dəyişməsi qlobal sosial-iqtisadi balansın laxlamasına səbəb oldu. 2021-ci il Davos iqtisadi formunda elan olunan “RESET”, yəni yenidən başlama strategiyası pandemiyanın yaratdığı sosial çətinliklərlə bağlı töhvələr versə də, 2021-ci ildə pandemiya ilə mübarizə üçün dünya bazarlarına səpələnmiş böyük pul kütləsi 2021-ci il qlobal inflyasiya böhranına səbəb oldu. Pandemiyadan zərər çəkmiş milli iqtisadiyyatlar və bizneslər inflyasiyanın yaratdığı çətinliklərdən də əziyyət çəkməyə başladılar. Əlavə olaraq 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlanması qlobal geosiyasi və sosial-iqtisadi fonu daha da gərginləşdirdi.

Müharibənin səbəb olduğu taxıl qıtlığı, sanksiyalar və əlavə olaraq yüksək inflyasiyanın davam etməsi dünya iqtisadiyyatına əlavə stress yaşadır.

Hal-hazırda davam edən qlobal böhranlar səbəbi ilə dövlətlər öz milli iqtisadi sistemlərinə böhranın aradan qaldırılması və ya ən azından yumşaldılması üçün dəyişiklik etmək zərurəti yaşayırlar. Əksər dünya ölkələri bu səbəbdən "dayanıqlı inkişaf" modeli üzərində işləyirlər. "Dayanıqlı inkişaf" modeli "yaşıl iqtisadiyyat" anlayışı ilə vəhdət təşkil edib, iqtisadiyyatların ekoloji təmiz və yenilənə bilən xarakterdə inkişafını qarşısına məqsəd qoyub.

Neft qiymətlərinin 2014-cü ildən başlayaraq kəskin enişi və bunun səbəbindən milli valyutaya olan təzyiq, 2015-ci ildə Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərməyə başladı. Bunun nəticəsi olaraq dövlət tərəfindən 2025-ci ilə kimi milli iqtisadiyyatın neftdən asıllığını aradan qaldırmaq və şaxələndirmək üçün "yol xəritəsi" və "strateji plan"lar hazırlandı. 2020-ci ildə pandemiya səbəbindən iqtisadiyyata olan basqı, 2-ci Qarabağ müharibəsindən sonra da artdı. İşğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyəti kritik olması və bütün iqtisadi infrastrukturun yoxdan yenidən yaradılması kimi problemlər iqtisadiyyata əlavə yük yaratdı. Bu səbəbdən Azərbaycan Respublikası prezidenti 2021-ci ildə işğaldan azad olunmuş əraziləri "yaşıl inkişaf əraziləri" elan etdi və bu bölgələrdə "yaşıl iqtisadiyyat" və "dayanıqlı inkişaf" konsepsiyası həyat keçirilməyə başladı. Bütün bu proseslər "Ağıllı kənd" layihəsi ilə başladı və gələcəkdə də həm işğaldan azad edilmiş ərazilərdə, həm də Azərbaycanın digər bölgələrində bu layihələrin yaradılması dayanıqlı inkişafa öz töhvəsini verməlidir. Əlavə olaraq qeyd olunan layihədə Azərbaycanın öndərlik etməyi, gələcəkdə digər dünya ölkələrində də bu konseptin tətbiq edilməsinə şərait yaradacaqdır.

## 2. "Ağıllı kənd" layihəsi, onun yaşıl iqtisadiyyatda rolu və imkanları

"Ağıllı kənd" və ya "Ağıllı şəhər", kənd ərazilərinə müasir informasiya və kommunikasiya texnologiyaları ilə mümkün olan əlaqəni təmin edilməsi üçün dayanıqlı enerji xidmətinin göstərilməsi konseptidir. Bu layihə digər kənd və aqrar layihələrlə qarşılıqlı şəkildə təşkil edildikdə, kənd insanının həyata daha da yaxşılaşdırmağı qarşısına məqsəd qoyub. "Ağıllı kənd" layihəsi Dayanıqlı inkişaf strategiyasının özündə cəmləşdirən əsas konsepsiyalardan biridir [17].

Layihə ilkin olaraq Asiya və Afrika ölkələri miqyasında çox diqqət çəksə də, ilkin olaraq Avropada yaranıb inkişaf etməyə başladı. Ağıllı kəndlər konsepsiyası kəndlərdə, xüsusən də texnoloji, maliyyə və təhsil metodologiyası ilə inkişaf etməkdə olan ölkələrdə enerjiyə çıxış üçün real maneələrlə mübarizə səyləri ilə məşğuldur. Ağıllı kəndlərin əsas diqqəti bərbapolunmayan ehtiyatların əvəzinə bərpa olunan resurslarda daha çox istifadə edilməsidir ki, bu da ucqar yaşayış məntəqələri və ya icmalar vasitəsilə inkişaf etdirilə biləcək ən yaxşı yanaşma kimi görünür [11].

Aşağıdakı əsas xüsusiyyətlər "Ağıllı kənd" layihəsinin əsas ayrılmaz hissəsi kimi müəyyən edilir:

- Aqrar problemlər və çətinliklərlə bağlı yeni həllərin məlumatlandırılmasında və çatdırılmasında kənd icmalarının iştirakı;
- Kənd icmalarının iqtisadi, sosial və ekoloji davamlılığının gücləndirilməsi;
- Kənd icmalarının ehtiyaclarını ödəmək üçün yeni texnologiyaların və rəqəmsal xidmətlərin tətbiqi.

Ümumilikdə, "Ağıllı Kənd" layihəsi yerli icmaların yeni texnologiyalardan və sosial həllərdən istifadə etmək imkanlarını təkmilləşdirmək məqsədi daşıyır. Bu anlayış özündə kənd icmalarında problemlərin həllini və kəndlərin dayanıqlı inkişafının saxlanılmasını özündə əks etdirir [10].

Ağıllı kənd layihəsi özündə əsasən qarşılıqlı əlaqədə olan 5 faktoru birləşdirməlidir. Bu faktorlar əsasən endogen xarakterli olub, kənd icmasının inkişafı üçün yerli ehtiyatların axtarılmasını özündə rəhbər tutur [16]:

- Sakinlərin ehtiyacı;
- Resurslar;
- İdarəetmə;
- Texnoloji innovasiya;
- İctimai xidmətlər.

Hər bir faktor aşağıdakı diaqramda göstərilyi kimi bir-biri ilə qarşılıqlı əlaqədə olur. Faktor əlaqəsi davam edən tsikl halında olduğu üçün özündə dayanıqlı inkişaf konseptini saxlayır [14].




Hal-hazırda dünya ölkələri milli iqtisadiyyatlarının "Yaşıl İqtisadiyyat" və "Ağıllı Kənd" layihəsinə keçirmək uğrunda əsas pərakəndə siyasət aparırlar. Bura hər ölkənin ayrı-

ayrılıqda öz vizyonunun olması və onun tətbiqi məsələləri aiddir. İlk dəfə olaraq "Ağıllı Kənd" və "Yaşıl İqtisadiyyat" anlayışlarının özündə Avropa İttifaqının "European Green Deal" layihəsi birləşdirdi [4].

"European Green Deal" layihəsi 2020-ci ildə Avropa İttifaqı tərəfindən irəli sürülmüş və təsdiqlənmiş layihədir. Layihənin əsas məqsədi Avropa İttifaqını 2050-ci ilə kimi "Karbon Neytral" səviyyəsinə çatdırmağı özündə əks etdirir. Bu layihə aşağıdakı komponentləri özündə birləşdirir [5]:

- Dairəvi iqtisadiyyat fəaliyyət planı. Bura İttifaq dövlətlərinin iqtisadiyyatlarının dairəvi (circular) müstəviyə keçirmək və inkişaf etdirmək daxildir [3];
- Emissiyaların Ticarət Sistemi də daxil olmaqla, iqlimlə bağlı bütün müvafiq siyasət alətlərinin nəzərdən keçirilməsi və mümkün təftişi;
- Uyğunluqdan performansa diqqətin dəyişdirilməsi ilə birlikdə "Farm to Fork" strategiyası. Bura torpaqda karbonun idarə edilməsi və saxlanması, qida maddələrinin təkmilləşdirilməsi, emissiyaların azaldılması və s. daxildir;
- Tükənən yanacaq ehtiyatları üzrə subsidiyalarına və vergi güzəştlərinə(aviasiya, gəmiçilik) tənzimləyən "Enerji Vergisi Direktivi"nə yenidən baxılması;
- Davamlı və ağıllı çeviklik strategiyası;
- Avropa İttifaqı meşə strategiyası. Bu strategiyanın əsas məqsədləri Avropada effektiv meşə salınması, meşələrin qorunması və bərpasıdır [7].

Layihənin əsas hədəfləri isə aşağıda qeyd olunub:

- 2050-ci ilə kimi ən azı bir ittifaq ölkəsinin "Karbon Neytral" olması;
- 2030-cu ilə kimi net karbon tullantısını ən azı 1990-cı il ilə müqayisədə 55% endirmək;
- 2030-cu ilə kimi əlavə 160 000 yeni "Yaşıl iş yerləri"nin yaradılması;
- 2030-cu ilə kimi 35 milyona yaxın binanın yenidən re-innovasiya edilməsi;
- 2030-cu ilə kimi tükənməz yenilənən enerjidən istifadə hədəfini 40%-ə çatdırmaq;

Layihənin mahiyyəti əsasən Avropa İttifaqının "Yaşıl İqtisadiyyata" keçidinin sürətləndirilməsini özündə hədəf tutub və buna bir neçə üsulla keçidi hədəfləyir. Üsullardan biri də "Ağıllı kənd" olmaqla özündə bir neçə komponenti birləşdirir. Avropa İttifaqının təsdiq etdiyi "European Green Deal" layihəsinin "Ağıllı Kənd"lə uyğunlaşdırılmasının aşağıdakı Sosial-İqtisadi addımlarla həyata keçirilir [13]:

1. Avropanın İqlim dəyişikliyi ilə bağlı 2050-ci ilə kimi ambisiyası. Layihənin 2050-ci ilə kimi hədəfləri ölkələrin ilk olaraq kəndlərdən başlayaraq "Yaşıl İqtisadiyyat"a keçidinin sürətləndirilməsinə səbəb olub. Bunun ilkin variantı kimi İrlandiyanın Kloxjordan qəsəbəsini misal göstərmək olar. Bu qəsəbə Avropanın ilk Ağıllı və Ekokəndi sayılır. Hal-hazırda da kənd özü-özlüyündə elektrik enerjisi istehsal edir və kəndin iqtisadi fəaliyyəti təbiətə daha az ziyan vurur.
2. Təmiz, qənaətcil və güvənli enerji təchizatı. Bura icmalar arasında enerji inkişafı və dövriyyəsi aiddir. Bunlar daha çox yerə uyğun olaraq dəyişir və belə layihələrə investisiyalar əsasən sakinlər və icmalara tərəfindən qoyulur. Layihənin bu addımı

özündə kəndlərin külək, bioqaz, günəş və ya termal enerji ilə təmin edilməsini cəmləşdirir.

3. Sənayeninin təmiz və dairəvi iqtisadiyyata keçid üçün səfərbər edilməsi. Kənd təsərrüfatı dairəvi iqtisadiyyatın köhnə modeli sayılırdı. Avropada isə buna kağız istehsalı aid idi. Meşələrin kağız istehsalı üçün qırılması ekoloji böhrana səbəb olduğundan, onların səmərələliyini artırıkması üçün başqa, daha təmiz sənaye növlərinə keçid başladı.
4. Xammal və enerjinin səmərəliliyinin artırılması üçün yeni və innovativ yolların tapılması. Avropanın tarixi iqliminə əsasən evlərin isti olması əsas amil idi. Hal-hazırda Şimali Avropa ölkələri, əsasən də İslandiyada evlərin "istehsal" etdiyi istilik enerjisi digər enerji növlərinə çevrilməsi üçün innovativ addımlar atılır. Bu yol ilə, ağıllı kəndlərin enerji hasilatı sərfiyyatını tam qarşılamalıdır.
5. Təbiəti zəhərli tullantılardan tam azad etmək. Ağıllı kəndlər kənd təsərrüfatı ətrafında ixtisaslaşdığı üçün, torpaqlara verilən kimyəvi gübrələr torpaq örtüyünün tam çirklənməsinə səbəb olur. Kimyəvi gübrələrin organik gübrələrlə əvəz edilməsi siyasəti bunun əsasının təşkil edir.
6. Ekosistemin və biomüxtəlifliyin qorunması və bərpa edilməsi. Keçən əsrin 90-cı illərindən başlayaraq kənd təsərrüfatı üzrə tullantılan azaldılması və aqrar zonaların meşə zonalarına keçidinin qarşısı ekstensiv inkişafdan intensiv inkişafa keçidlə qarşısı alındı. Amma, problemlərin qalması kənd təsərüffatlarının yenidən təşkili və inkişaf etdirilməsini bu komponentin hədəf dairəsində yerləşdirir.
7. "Fermadan Çəngələ"(From Farm to Fork) – ədalətli, sağlam və təbiət dostu qida sistemi. Avropa İttifaqının təsdiq etdiyi bu layihə, əhali arasında sağlam qidalanmanın təşviq edilməsini özündə birləşdirir. Beləki, qidalanma pozuntusu ilə bağlı əhali arasında xəstəliklərin və piylənmənin artması, insanların daha çox ekoloji təmiz qidalara meyl etməsinə səbəb olub. "Fermadan Çəngələ" konsepsiyası isə "Ağıllı Kənd"lərdə istehsal edilmiş məhsulların birbaşa istehlakçıya çatdırılmasının qarşısına məqsəd qoyub. Bu əlavə əməliyyat, daşınma və istehsal xərclərini azaltmaqla, kəndlərin iqtisadi səmərəliliyini artırır.
8. Davamlı və ağıllı çevikliyə keçidin sürətləndirilməsi. Kənd yerlərində ictimai nəqliyyatın inkişaf etdirilməsi bu komponentin özəyidir. Beləki, kənd yerlərində şəxsi nəqliyyat vasitələrin istifadənin azaldılması ətraf mühitin çirkləndirilməsi kimi amillərə birbaşa təsir göstərir. İctimai nəqliyyatın həmin ərazilərdə fəaliyyətə başlaması bu prosesə təkan verəcək.
9. Araşdırma və innovasiyaların inkişafı. Qloballaşan dünyada yeniliklərin və innovasiyaların "Ağıllı Kənd"lərə tətbiq edilməsi gələcəkdə bu layihənin daha da böyüməsinə və qlobal müstəviyə çıxmasına kömək göstərməlidir.

Yuxarıda göstərilənlərə əsasən, hələki "Ağıllı kənd" və "Yaşıl İqtisadiyyat" prinsiplərini özündə Avropa İttifaqının qeyd olunmuş layihəsi özündə cəmləşdirir. Gələcəkdə Dünyanın digər regionlarının da eyni layihələrdən intensiv istifadəsi dayanıqlı inkişaf üçün əsas zəmin yaradacaq.

## 3. "Ağıllı kənd" layihəsi Azərbaycan Respublikasının yaşıl iqtisadi inkişaf prioriteti kimi

Azərbaycanda "Ağıllı Kənd" layihəsi haqqında anlayışlar 2021-ci ildən genişlənməyə başlasa da, "Yaşıl İqtisadiyyat"la bağlı anlayışlar daha irəli, 2015-ci ilə doğru gedir. 2014-cü ildə dünya bazarında xam neftin qiymətinin kəskin ucuzlaşması və prosesin uzunmüddətli dövrdə sabit qalması, neft və neft məhsullarından asılı olan Azərbaycan iqtisadiyyatına əlavə təzyiq göstərməyə başladı. Azərbaycan iqtisadiyyatı dünya neft bazarında bundan əvvəl olmuş şoklara, məsələn, 2008-ci il maliyyə böhranı səbəbindən neft qiymətlərinin ucuzlaşmasına tab gətirə bilmişdi. Lakin, 2008-ci il böhranı qısamüddətli olması, 2014-cü ildən başlayan böhranın daha sərt nəticələrə gətirib çıxarmasına səbəb oldu. 2015-ci ildə milli valyuta 2 dəfə devalivasiyaya uğradı və iqtisadiyyat ilk dəfə olaraq kiçildi. 2015-ci il böhranı Azərbaycanda post-neft dövrünün başlanğıcına səbəb olacaqdı.

Yaranmış böhranlı vəziyyəti aradan qaldırmaq və iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi məqdəsi ilə 2016-ci ildə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı" verildi. Yol xəritəsinin əsas məğzi Azərbaycan iqtisadiyyatının 2025-ci ilə kimi neftədən asıllığını tam aradan qaldırmaq və iqtisadiyyatı digər sektorlara dorğu şaxələndirməkdən ibarətdir. Yol xəritəsində ilk dəfə olaraq "Ekoloji təmiz enerji" və "Yaşıl iqtisadiyyat" terminlərindən istifadə edilmişdi.

2020-ci ildə Dünyada başlayan pandemiya və onun iqtisadiyyata təsiri Azərbaycandan da yan ötmədi. İqtisadi çarxların durğunluğu və sərhədlərin bağlı olması ÜDM-in azalmasına şərait yaratdı. Əlavə olaraq Ermənistanın 2020-ci ildə təxribatına cavab olaraq 44 günlük II Qarabağ savaşının başlanması və 30 ildən artıq işğal altında qalmış torpaqların azad edilməsi iqtisadiyyata əlavə basqılar yaratmaya bilməzdi. 30 ildən artıq işğal, dağıntı, infrastrukturun olmaması və işğal dövründən bütün təbii və maddi sərvətlərin talan edilməsi bərpa proseslərinin ənənəvi qaydada aparılmasına yol vermirdi. Bu səbəbdən qeyd olunan ərazilərin bərpa və yenidənqurucluq işləri tam yeni inkişaf strategiyası ilə aparılmalı idi.

2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti işğaldan azad olunmuş ərazilərlə bağlı üç vacib fərman verdi:

1) Azərbaycanın iqtisadi rayonları yenidən təşkil edildi. Beləliklə işğaldan azad edilmiş ərazilər "Şərqi Zəngəzur" və "Qarabağ" iqtisadi rayonları arasında bölündü[18];
2) İşğaldan azad edilmiş ərazilər "Yaşıl İqtisadiyyat" zonaları elan edildi[2], [12];

3) “Böyük Qayıdış” planına uyğun olaraq ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində bərpa və quruculuq işləri görülməyə başladı. Bu kənd Azərbaycan tarixində ilk dəfə olaraq “Ağıllı kənd” layihəsi ilə yenidən qurulmağa başlanıldı[1].

Yuxarıda qeyd olunmuş hər 3 nüans Azərbaycan Respublikasında “Yaşıl İqtisadiyyat”ın inkişafı üçün cığır açmağa başladı.

Zəngilan rayonun Ağalı kəndi bu fərmanlardan dolayı ilk bərpa edilən və İkinci Qarabağ savaşından sonra yerli sakinlərin köçürüldüyü ilk kənd oldu. Kəndin yerləşdiyi Zəngilan rayonu və onunla qonşu olan Qubadlı və Cəbrayıl rayonları 30 ildən çox işğaldan ciddi zərər çəkmiş rayonlardan bir neçəsi idi. Müharibənin səbəb olduğu dağıntılar səbəbindən məcburi köçkünlərin həmin rayonların ərazisində olan dağıdılmış yaşayış məntəqələrinə tez bir zamanda köçürülməsi mümkün deyildi. Kəndə ən yaxın olan yaşayış məntəqəsi ilə 2016-cı il aprel döyüşləri zamanı azad edilmiş Cocuq Mərcanlı kəndi idi ki, o da 62 km məsafədə yerləşir və yol infrastrukturunun yoxluğu, mina və partlamamış sursatların mövcudluğu nəqliyyat əlaqəsini çox aşağı səviyyədə saxlayırdı. Bu səbəbdən kəndin özü-özünü təmin etməsi əsas amil idi. Özü-özünü təmin edən kənd “Ağıllı kənd” anlayışı ilə birəbir eyni olduğu üçün bu strategiya tətbiq edilməyə başladı.

Strategiyaya əsasən kəndin bərpa və quruculuq işləri 5 əsas komponentdən ibarətdir:

1. **Yaşayış.** Bu komponentə kənd ərazisində ekoloji təmiz materiallardan istehsal edilmiş və ətraf-mühitə az ziyan vuran 200 ədəd ekoloji izolyasiya edilmiş evlərin tikintisi daxildir.
2. **İstehsal.** Bu komponentə kənd ərazisində istehsal müəssisələrini yaradılması və inkişag etdirilməsi nəzərdə tutulub. İstehsal amili kəndin öz daxili tələbatını ödəməklə yanaşı, gələcəkdə rayona daxil olan digər kəndlərin də təmin edilməsini öz üzərinə götürüb.
3. **Sosial xidmət.** Bura kənd ərazisində dövlət və sosial xidmət işinin təşkili daxildir. Şərqi Zəngəzur “DOST Aqropark”ının və səyyar ASAN Xidmətin yaradılması ilə sosial xidmətlər daha da inkişaf etdirildi.
4. **Ağıllı kənd təsərrüfatı.** Bu komponent “Ağıllı kənd” layihəsinin əsas özəyini təşkil edir. Belə ki, kənddə süni intellekt və dron texnologiyasının istifadə edilməsi ilə kənd təsərrüfatının inkişaf etdirilməsi qarşıya qoyulmuş əsas məqsəddir. Bu komponentə həmçinin ekoloji təmiz gübrələrdən və bərpaedilən tükənməz resurslardan istifadə daxildir. Bunun üçün kənd ərazisində “Ağıllı idarəetmə mərkəzi” və databazalar yaradılıb.
5. **Alternativ enerji.** Kəndin özünü məhsul və xammaldan əlavə, ekoloji təmiz enerji ilə də təmin edilməsi “Ağıllı Kənd” layihəsinin özəlliklərindən biridir. Burda kəndin əsasən kiçik ölçülü günəş, külək və su elektrik stansiyalarının yaradılması qarşıya məqsəd qoyulmuşdu. Bu enerji stansiyaları vasitəsi ilə kəndin əhalisi həm öz məişət enerji ehtiyaclarını, həm də istehsal üçün lazım olan enerji təminatını tam ödəməli və qonşu ərazilərə enerji ixrac etməlidir.

19 iyul 2022-ci ildə kəndin bərpa və yenidənqurma işlərinin tam bitməsindən sonra ilk sakin qrupu həmin əraziyə köçürüldü. Köçürülmüş əhali kəndin "Ağıllı" konsepsiyasına uyğunlaşmaya başlamışdır. Kənd ərazisində kənd təsərrüfatını artan templə inkişafı artıq nəzərə çarpacaq qədər özünü göstərməyə başlamışdır. Növbəti illərdə əhalinin digər qruplarının da bu ərazilərə köçürülməsi ilə kəndin istehsal gücünün 3 dəfəyə qədər artacağı proqnozlaşdırılır. Zəngilan rayonunun Ağalı kəndinin "Ağıllı kənd" konsepsiyası ilə bərpa və yenidənqurulması, işğaldan azad edilmiş digər ərazilərdə də bərpa və quruculuq işlərinin bu yöndə aparılmasına şərait yaradır. Beləki, Kəlbəcər şəhərinin "Ağıllı şəhər", Ağdam rayonunun Baş Qərvənd və Füzuli rayonunun Dövlətyarlı kəndlərinin isə "Ağıllı kənd" layihəsi ilə yenidən qurulması işlərinə artıq başlanılıb.

**Nəticə.** "Ağıllı Kənd" layihəsinin sırf işğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsi həmin ərazilərə gələcəkdə köçürüləcək sakinlərin öz daxili tələbatlarını ödəyə bilməsi qarşıya məqsəd qoyulub. Dövlət tərəfindən neftdən asıllığını tam aradan qaldırılması üçün "Yaşıl İqtisadiyyat" konseptinin tətbiqi üçün ən yaxşı məkan bu səbəbdən məhz işğaldan azad edilmiş ərazilər idi. Bu ərazilərdən yaşayış məntəqələrinin "Ağıllı" inkişaf konsepti ilə bərpası dünya üçün böyük təcrübədir. Qlobal ekoloji problemlərin həll edilməsində şəhər və kənd infrastrukturlarının "yaşıl" yöndə keçid etməsi artıq elə də çətin görünmür. Azərbaycan təcrübəsi onu göstərdi ki, heç bir infrastrukturu olmayan yaşayış məskənlərindən uzaq ərazilərdə belə "Ağıllı kənd" qurmaq və onu "Yaşıl İqtisadiyyat"a dərin inteqrasiya etmək mümkündür.

Azərbaycan üçün bunun yaxşı tərəfi ölkəyə ekoloji inkişaf üçün maraq qruplarının və "yaşıl investisiya"nın sürətli cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərdə dayanıqlı inkişaf modelinin yaradılmasıdır. Bu da öz növbəsində gələcəkdə "yaşıl inqilab"ın Azərbaycan Respublikasının digər ərazilərdə də baş verməsi və ekoloji çirklənməyə məruz qalmış Abşeron-Xızı, Mərkəzi Aran, Şirvan-Salyan və Bakı iqtisadi rayonlarına daxil olan kəndlərin "Ağıllı kənd" layihəsi ilə yenidən qurulmasına şərait yaradacaq. Həmçinin, Azərbaycanda kənd ərazilərində yeni iş yerləri və məhsuldar təsərüffatların yaradılması, kəndlərin yenidən inkişafı və iqtisadi canlamaya səbəb olacaq.

Dünya üçün "Ağıllı kənd" layihəsinin Azərbaycan təcrübəsi isə, ekoloji böhran nəticəsində zərər görmüş regionlarda aqrar təsərrüfatların inkişafına stimul verəcək. Əlavə olaraq, işğaldan azad edilmiş ərazilərdə bu layihənin tətbiqi təcrübəsi gələcəkdə müharibə nəticəsində yaşayış məntəqləri dağılmış Suriya, Ukrayna, Əfqanıstan və Yəmən kimi ölkələrdə yenidənqurma işlərinin Azərbaycan təcrübəsi ilə aparılmasına öz töhvəsini verəcəkdir.

## Ədəbiyyat

1. "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, (2021).

2. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2021)
3. https://environment.ec.europa.eu/strategy/circular-economy-action-plan_en
4. https://commission.europa.eu/strategy-and-policy/priorities-2019-2024/european-green-deal/delivering-european-green-deal_en
5. https://commission.europa.eu/strategy-and-policy/priorities-2019-2024/european-green-deal_en
6. https://www.homeowner.com/energy-science
7. European Comission, (2012). Communication From The Commission To The European Parliament, The Council, The European Economic And Social Committee And The Committee Of The Regions. Document 52012DC0673.
8. https://en.wikipedia.org/wiki/Smart_village
9. https://fed.az/az/aqrar/azerbaycanda-agilli-kend-nece-olacaq-detallar-ekskluziv-40732
10. https://nkwlsmartvillages.ie/what-is-a-smart-village/
11. https://www.homeowner.com/energy-science
12. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2021.
13. Slee B., (2021). Smart Villages and the European Green Deal: making the connections.
14. Smart Villages. Revitalising rural services. EU Rural Rev., 2018, 26, 8.
15. Mieczysław A., (2020). The “Smart Village” as a Way to Achieve Sustainable Development in Rural Areas of Poland.
16. Satola L., Milewska A., (2022). The Concept of a Smart Village as an Innovative Way of Implementing Public Tasks in the Era of Instability on the Energy Market—Examples from Poland.
17. Holmes J., (2017). The Smart Villages Initiative: Findings 2014-2017.
18. Qasımlı V., Hüseyn R., Hüseynov R., Həsənov R., Cəfərov C., Bayramova A., (2022). “Yaşıl İqtisadiyyat”. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.